A FEMINIST CHARACTER IN JEWISH LITERATURE IS LILITH

Aisha Jumshudova[1]
Elnura Azizova[2]

UDC: 296.; 390.
LBC: 86.3; 66.74
HoS: 49
DOI: 10.33864/2790-0037.2025.v6.i1.71-81

Keywords:

Lilith,
Feminist theology,
Jewish mythology,
Patriarchy,
Gender studies

ABSTRACT

The generally accepted story of the creation of the world is the creation of the first man (Adam) as male and then the creation of a woman (Eve) from him and for him. However, accounts of the co-creation of man and woman suggest that Adam had another wife before Eve, hence the legend of Lilith. Lilith, who is also mentioned in Jewish sacred texts such as the Talmud, Midrash and Zohar, is also depicted in the non-Jewish alphabet Ben Sira. Thus, Lilith was Adam's first wife, could not get along with him, and left Adam and paradise, claiming that they were equal since they were created equally. Lilith and Eve are mythological figures symbolizing the opposite poles of female identity and morality. In sacred texts, the events that led to the serpent-demon (Lilith) persuading Eve to eat the "forbidden fruit" were transformed into the image of two hostile characters in works of art. Today, feminists consider her the first woman to rebel against male domination. Today in the Judeo-Christian tradition, all the ancient goddesses are resurrected as Lilith because negative sexist portrayals of women are frowned upon. Lilith is the antithesis of feminist ideology, which Judaism presents as a female devil and incites hatred of women. Therefore, it can be said that understanding Lilith is the basis for understanding feminism.

[1] Azerbaijan Institute of Theology, majoring in "History of Religions", master's student; Baku, Azerbaijan (corresponding author)
E-mail: cumsudaise@gmail.com
https://orcid.org/0009-0000-1017-5275
[2] Doctor of Philosophy in Theology, Associate Professor,
Azerbaijan Institute of Theology, Dean; Baku, Azerbaijan
E-mail: elnuraazizova@ait.edu.az
https://orcid.org/0000-0002-2505-1299
To cite this article: Jumshudova, A. & Azizova, E. [2025]. A Feminist Character in Jewish Literature is Lilith. *History of Science journal, 6*(1), pp.71-81.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.71-81

Article history:
Received: 04.11.2024
Accepted: 28.02.2025

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

YƏHUDİ ƏDƏBİYYATINDA FEMİNİST OBRAZ-LİLİT

Aişə Cümşüdova[1]
Elnurə Əzizova[2]

UOT: 296.; 390.
KBT: 86.3; 66.74
HoS: 49
DOI: 10.33864/2790-0037.2025.v6.i1.71-81

Açar sözlər:

Lilit,
Feminist teologiya,
Yəhudi mifologiyası,
Patriarxal sistem,
Gender araşdırmaları

ANNOTASİYA

İlk insanın (Adəmin) kişi olaraq yaradılması, daha sonra qadının (Həvvanın) ondan və onun üçün yaradılması hamının qəbul etdiyi yaradılış hekayəsidir. Lakin kişi və qadının birgə yaradılışını təsvir edən ifadələr bizi düşündürdü ki, Adəmin Həvvadan əvvəl başqa arvadı olub və buna görə də Lilit əfsanəsi yaranıb. Talmud, Midraş və Zohar kimi yəhudilərin müqəddəs mətnlərində də adı keçən Lilit daha çox yəhudilər arasında mötəbər sayılmayan Ben Sira Əlifbası kitabında təsvir edilmişdir. Buna görə də Lilit Adəmin ilk arvadı olub və onunla anlaşa bilməyib, eyni şəkildə yaradıldıqları üçün bərabər olduqlarını iddia edərək, Adəmi və cənnəti tərk edib. Lilit və Həvva qadın kimliyinin və əxlaqının əks qütblərini simvollaşdıran mifoloji fiqur xüsusiyyətlərini göstərir. Müqəddəs mətnlərdə ilan-şeytan qadın (Lilit) Həvvanı “qadağan olunmuş meyvə”ni yeməyə inandırması nəticəsində olan hadisələr sənət əsərlərində iki xarakterin, bir-birinə düşmən təsvirinə çevrilmişdir. Bu gün o, feministlər tərəfindən kişilərin hakimiyyətinə qarşı üsyan edən ilk qadın kimi görünür. Bu gün yəhudi-xristian ənənələrində qadınların mənfi təsvir edilməsi nifrət doğurduğu üçün bütün qədim ilahələr Lilit şəklində diriltilməyə çalışılır. Yəhudiliyin dişi şeytan kimi təqdim etdiyi və qadınlara nifrəti alovlandıran Lilit feminist ideologiyanın əksini təşkil edir. Ona görə də demək olar ki, Liliti anlamaq Feminizmi dərk etməyin əsasıdır.

[1] Azərbaycan İlahiyyat İnstitutunun “Dinlər Tarixi” ixtisası üzrə magistrantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: cumsudaise@gmail.com
https://orcid.org/0009-0000-1017-5275
[2] İlahiyyat üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan İlahiyyat İnstitutu, Dekan; Bakı, Azərbaycan
E-mail: elnuraazizova@ait.edu.az
https://orcid.org/0000-0002-2505-1299
Məqaləyə istinad: Cümşüdova, A., & Əzizova, E. [2025] Yəhudi Ədəbiyyatında Feminist Obraz-Lilit. *History of Science jurnalı, 6*(1), səh.71-81.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.71-81

Məqalənin tarixçəsi:
Məqalə redaksiyaya daxil olmuşdur: 04.11.2024
Təkrar işlənməyə göndərilmişdir: 09.12.2024
Çapa qəbul edilmişdir: 28.02.2025

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

ФЕМИНИСТСКИЙ ПЕРСОНАЖ В ЕВРЕЙСКОЙ ЛИТЕРАТУРЕ – ЛИЛИТ

Аиша Джумшудова[1]
Эльнура Азизова[2]

УДК: 296.; 390.
ББК: 86.3; 66.74
HoS: 49
DOI: 10.33864/2790-0037.2025.v6.i1.71-81

Ключевые слова:

Лилит, Феминистская теология, Еврейская мифология, Патриархат, Гендерные исследования

АННОТАЦИЯ

Общепринятой историей сотворения мира является сотворение первого человека (Адама) как мужчины, а затем создание из него и для него женщины (Евы). Однако рассказы о совместном сотворении мужчины и женщины наводят на мысль, что до Евы у Адама была еще одна жена, отсюда и легенда о Лилит. Лилит, которая также упоминается в еврейских священных текстах, таких как Талмуд, Мидраш и Зоар, изображена и в нееврейском алфавите Бен Сира. Таким образом, Лилит была первой женой Адама, не смогла ужиться с ним и покинула Адама и рай, утверждая, что они равны, так как были созданы одинаково. Лилит и Ева - мифологические фигуры, символизирующие противоположные полюса женской идентичности и морали. В священных текстах события, в результате которых змея-демон (Лилит) уговорила Еву съесть «запретный плод», трансформировались в образ двух враждебных персонажей в произведениях искусства. Сегодня феминистки считают ее первой женщиной, восставшей против мужского господства. Сегодня в иудео-христианской традиции все древние богини воскрешаются в образе Лилит, поскольку негативное сексистское изображение женщин не одобряется. Лилит - это антитеза феминистской идеологии, которую иудаизм представляет как женщину-дьявола и разжигает ненависть к женщинам. Поэтому можно сказать, что понимание Лилит - это основа для понимания феминизма.

[1] Азербайджанский институт теологии, специальность «История религий», магистрант; Баку, Азербайджан (ответственный автор)
E-mail: cumsudaise@gmail.com
https://orcid.org/0009-0000-1017-5275
[2] Доктор философии по теологии, доцент,
Азербайджанский теологический институт, декан; Баку, Азербайджан
E-mail: elnuraazizova@ait.edu.az
https://orcid.org/0000-0002-2505-1299

Цитировать статью: Джумшудова, А., & Азизова, Э. [2025]. Феминистский Персонаж в Еврейской Литературе – Лилит. *Журнал History of Science*, *6*(1), с.71-81.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.71-81

История статьи:
Статья поступила в редакцию: 04.11.2024
Отправлена на доработку: 09.12.2024
Принята для печати: 28.02.2025

1.Giriş

Kainatın və insanın yaradılışı ilə bağlı müxtəlif inanclar, miflər və rəvayətlər tarix boyu insan təxəyyülündə dərin izlər buraxmışdır. Yəhudi dini mətnlərində yaradılış hekayələri, xüsusilə Adəm və Həvva ilə bağlı rəvayətlər, bu təsəvvürlərin əsasını təşkil edir. Bununla belə, yəhudi ədəbiyyatında diqqətəlayiq bir obraz olan Lilit, qadının kimliyi və azadlığı ilə bağlı mübahisəli bir simvol olaraq önə çıxır. Lilit obrazı, patriarxal sistemə qarşı üsyan edən bir qadın kimi feminist ideologiya üçün mühüm məna kəsb edir. Bu məqalədə Lilit obrazının mənşəyi, dini və mfoloji mətndəki təsviri və onun müasir feminist tədqiqatlardakı yeri araşdırılır.

Kainatın və insanın yaradılması yəhudiliyin müqəddəs kitabı olan Tanaxın Yaradılış adlı birinci fəslində təsvir edilmişdir. Ancaq burada iki fərqli izahat var. [23, s.104] Buna görə də birinci rəvayətdə kişi və qadının eyni vaxtda yaradıldığı bildirildiyi halda, digər rəvayətdə qadının kişinin bir üzvündən yaradıldığı bildirilir. Bu iki fərqli rəvayətdəki boşluqları doldurmaq və rəvayətlər arasındakı ziddiyyətləri aradan qaldırmaq üçün təfsirlərə qədim ilahə və dişi şeytanlar haqqında xalq rəvayətləri əlavə edilmiş və Lilit Adəmin birinci arvadı olaraq qəbul edilmişdir. [11] Bu kontekstdə Adəmin ilk arvadının niyə yoxa çıxması və Həvvanın ikinci qadın olaraq yaradıldığı anlamağa çalışılmış, Adəmin mövqeyini patriarxal prizmadan qorumaq üçün birinci qadının günahkarlığı izah edilməyə çalışılmışdır.

İbrahimi dinlərdən əvvəl ilahələrə və beləliklə də Lilitə aid edilən bərəkət, çoxalma, sevgi, bolluq və güc kimi xüsusiyyətlər sonradan cinsəllik, pozğunluq, ölüm və təqib kimi mənfi sifətlərlə əvəz edilmişdir. Bu baxımdan, Lilith gecə kabusu, dişi cin, iblis/şeytan və ya ilan kimi də adlandırılır. Adəmə və onun nəslinə, bəşəriyyətə olan nifrətindən sonra o, yuxularında kişiləri azdıran, onları günaha sövq edən, hətta körpələri belə öldürən bir qatilə çevrilmişdi. [23, s.111]

Lilith əsrlər boyu cinsəlliyi ilə öyünən, üsyankar və bu istəklərinin əvəzini cəzalandırılaraq ödəyən "şeytan və ya iblis qadın" kimi tanınmışdır. [6, s.366] Bu xüsusiyyəti ilə Lilit bərabərliyi müdafiə edən feminist düşüncəli insanların arxetipi hesab olunur. İbrahimi dinlərdən əvvəl Mesopotamiya inancında Ana ilahələr və ruhani varlıqlarla əlaqəli olan Lilit, ilahə kultu geridə qaldıqdan sonra qaranlıq bir fiqur olaraq görülməyə başladı. Lilit Şumer, Akkad, Babil və İbrani inanclarında bir çox qadın ilahələrlə əlaqələndirilir.

Lilith patriarxal nizama qarşı çıxan və buna görə şeytan kimi təsvir edilən obrazdır. Müasir dövrdə o, feminist yəhudilər üçün ilham mənbəyinə çevrilmişdir. Bu məzmunda bir çox araşdırma aparan feminist yəhudilər əvvəlcə qadının ikinci plana qoyulduğu ənənəni tənqid etmiş, daha sonra ilahiyyatda qadının varlığını ortaya çıxarmaq üçün bəzi rituallar inkişaf etdirmişlər.

2.İnsanın yaradılışı

Yəhudilikdə kainatın və insanın yaradılması Tövratın Yaradılış kitabının birinci fəslində izah edilir. İnsanın yaradılması ilə bağlı iki fərqli rəvayətin mövcudluğu insanın dini və ontoloji mövqeyini şərh etməyə çalışan yəhudi alimlərini yanıltmışdı. Buna görə də birinci rəvayətdə kişi və qadının eyni vaxtda yaradıldığı bildirildiyi halda, digər rəvayətdə qadının kişinin bir üzvündən yaradıldığı bildirilir.

Tövratda insanların kişi və qadın olaraq yaradıldığını göstərən ifadə Yaradılış kitabında belə ifadə edilir: “Adəmin nəslinin hekayəti: Allah insanı yaradarkən onu özünə bənzər yaratmışdır. İnsanı kişi və qadın olaraq yaratdı və onlara xeyir-dua verdi. Onlar yaradıldıqları gün “İnsan” adlandırıldı. [“Yaradılış” 5/1-2]

Yaradılışın 1:26-27-də kişi ilə qadının yaradılış hekayəsində, kişi ilə qadın arasında aydın bərabərlik var. Yaradılış haqqında bu parça, yəhudi ənənəsində cinsi ayrı-seçkiliyin

heç bir izi görünmür. Çünki parçada adı çəkilən qadın Adəmlə eyni mənşəlidir və onun kimi ona da yer üzündəki canlıların ağası olmaq hüququ verilmişdir. [9, s.432] Yəhudi ədəbiyyatında məşhur olan Lilit əfsanəsinin doğulmasına yol açan bu ilk yaradılış hekayəsi olmuşdur.

Qərbdə geniş tanınsa da, Şərq cəmiyyətlərində daha az tanınan Lilit [5, s.51] və bəşəriyyətin anası Həvva qadınların spesifik kimliyinin və patriarxal cəmiyyətin qadınlara tətbiq etdiyi əxlaqın əks qütblərini simvolizə edən mifoloji fiqurlardır.

Monoteist dinlərin müqəddəs kitablarındakı “yaradılış” rəvayətlərində Həvva ilk qadın kimi qeyd edilsə də, müqəddəs kitablara təsir etdiyi düşünülən bir çox başqa miflərdə Həvvadan əvvəl Adəm üçün həyat yoldaşı olaraq yaradılmış Lilit adlı başqa bir qadından bəhs edilir.

3.Digər dillərdə Lilit

Lilith sözünün mənşəyi baxımından şumer dilindən gəldiyi və bu dildən semitik dillərə keçdiyi söylənilir. Lilith sözünün semitik dillərdəki qarşılıqlarının bir-birinə yaxın olduğu qeyd edilir. Buna görə Lilithin babilcə qarşılığı Lilitu, asurca Lilatu, ibri dilində Layla, ərəbcə Leyla, həbəşcə Lelit, aramicə Leyla, süryanicə Leyla olaraq qeyd edilmişdir.

Yəhudi miflərində Lilitin əri şeytan kral Samuel kimi təsvir edilir. Samuel/Samiel adının etimologiyası samm (zəhər) və yel (külək) sözlərinin birləşməsindən ibarətdir və beləliklə simum sözünün isim formasına çevrilir. [14, s.177] Simum adətən yaz-yay aylarında Asiya-Afrika səhralarında epidemiya və vəba daşıyan zəhərli tüstü mənasına gəlir.

Əslində Lilitin semit dillərində “gecə” mənasını verən “Layla” ilə əlaqəsini yanlış hesab edən etimoloqlar olsa da, yuxularında kişiləri azdıran Lilit və onun bütün davamçıları, cin və şeytanların gecələr fəaliyyətlərini davam etdirmələri faktı, gecə ilə əlaqəsini ortaya qoyur. [12, s.5458]

4.Yəhudi ədəbiyyatında Lilit əfsanəsi və Həvva

Lilit əfsanəsi yəhudi ədəbiyyatında, xüsusən də Ben Sira əlifbası kimi tanınan kitabda diqqəti cəlb edir. Buna görə də Lilit Adəmlə eyni vaxtda torpaqdan/tozdan yaradılmışdır. Lilit feministlər tərəfindən kişilərin hakimiyyətinə qarşı üsyan edən ilk qadın feminist hesab edilir və bir rol modeli kimi vurğulanır.

Zohara görə, altıncı gündə yaradılan Adəm “Mən xaric hər məxluqun bir yoldaşı var” Tanrıya demişdir. Buna görə də Tanrı il qadın Liliti yaradır, eynilə Adəmi yaratdığı kimi yaradır fəqət təmiz toz yerinə kir və palçıqdan istifadə edir. Qadın bərabərlik iddiası ilə Adəmdən aşağı olmağı rədd edir, bu səbəbdən rahat yaşaya bilmirlər. Lilit (Ben Sira Əlifbasında olduğu kimi) Tanrının sirli və gizli adını deyir və göylərə yüksələrək Adəmi tərk edir. Adəm Tanrıya şikayət edir. Mələklər Liliti, ətrafda şəhvətli şeytanların olduğunu və onun hər gün onlardan yaranma yüz şeytan doğurduğu Qızıl dəniz yaxınlarından almağa gedirlər, gəlmədiyi təqdirdə dənizdə boğmaqla təhdid edirlər. O da “bundan sonra Adəmə necə qayıdıb hörmətli ev qadını olaraq yaşaya bilərəm ki?” deyə soruşur [13] və Tanrının təklifini rədd etmiş və ona tabe olmamışdı. Lilit buna qarşılıq: "Tanrıya de, bir daha Adəmlə heç vaxt! demişdir. Lilitin cavabına cavab olaraq Tanrı üç mələyinə onu cəzalandırmağı əmr etmişdir. Bunun nəticəsində Tanrı Adəmin qabırğasından Həvvanı yaratdı.

Həvvanın yaradılması ilə Adəm cənnətdə Həvva ilə harmoniya içində yaşamağa başladı. Bu vaxt üç mələk Lilitin övladlarını öldürməyə gedəndə ona Tanrının Adəm üçün qadın yaratdığını və Adəmin çox xoşbəxt olduğunu söylədilər. Lilith uşaqlarının ölümünü qəbul etdi, lakin bu, ona böyük ağrı verdi. O, mələklərə tərəf dönüb and içdi: “Tanrı mənim övladlarımı öldürdü, mən də Adəmlə Həvvanın yeni doğulan övladlarını bir-bir öldürəcəyəm”.

“Tanrı sizi pis qadınlardan qorusun, siz də özünüzü yaxşı qadınlardan qoruyun! [21, s.21]” Maraqlıdır ki, “qadın”ın nəyin bahasına olursa olsun qaçınılması lazım olan təhlükəli varlıq olduğunu iddia edən bu yəhudi atalar sözündə “pis qadın” Liliti, “yaxşı qadın” isə Həvvanı xatırlatmaq məqsədi güdür.

Yəhudi-xristian folklorunda, ənənəsində və demonologiyasında (Demonologiya) cin-iblis növünün anası və əfsanəvi dişi şeytan təbiəti ilə şər kraliçası kimi tanınan Lilit, əslində, antik dünya panteonları içində ana ilahə statusuna ən yaxın personajdır. Antik dövrdə müxtəlif adlarla tanınan ana ilahələr faktiki olaraq Lilit adı altında birləşmiş və yəhudiliklə birlikdə şeytan metaforasının zirvəsində oturaraq şər mənbəyinə çevrilmişlər. Bunun nəticəsində qadınlar cəmiyyətdə pis varlıq, şeytan və ilan kimi adlandırılmağa başlamışdır.

Antik dövrdən dişi şeytanın yəhudi ədəbiyyatında yüksək teoloji elementə çevrilməsi Lilitlə Həvvanın az qala eyniləşdirildiyi bir inanca çevrilmiş və qadın cinsi şirnikləndirici, şeytani keyfiyyətlərə malik ilan kimi qəbul edilmiş və ilkin günah üçün məsul şəxs kimi görülmüşdür. [16, s.516-517]

Adəmin ilk arvadının Lilit olması inancına gəlincə, qədim yəhudi inancında və sonrakı yəhudi adət-ənənələrindəki diqqətsiz münasibət Lilit və Həvvanın kimliklərinin bir-biri ilə qarışmasına mahiyyət etibarilə səbəb olmuşdur. Bu məna qarışıqlığını aradan qaldırmaq üçün Birinci Eva Nəzəriyyəsi irəli sürülmüş və buna uyğun olaraq Yaradılış kitabının 1-ci fəslində Lilith Adəmin birinci arvadı, 2-ci fəsildə isə Həvva ikinci arvadı olaraq qeyd edilmişdir. Adəm həmişə söz sahibi olmaq istəyirdi və özünü göy üzünə, Liliti isə cənnətdəki bərəkətli torpaqlara bənzədərək ona tabe olmasını istəyirdi. [25, s.92]

Lilit həm körpələrin, həm də anaların düşmənidir və hamilə qadınlara, yeni ana olanlara zərər verir. Günümüzdə də davam edən yəhudi ənənəsində yeni ana olan qadınlar Lilitin şərindən qorunmaq üçün axşamlar evdə tək qalmırlar. Yastıqların altına bıçaq və amuletlər qoyularaq, uşaq bezləri və paltar iplərinə asılır. Bundan əlavə, yeni ana olan qadınların saçlarına qırmızı lent bağlanır və onlara qırmızı rəngli şərbət verilir.

Ərlərinin Lilitin əmri altında olan Sukkubus tərəfindən məftun edilməsinin və təhrik edilməsinin qarşısını almaq üçün yəhudi qadınlar yataq otağının divarlarına Liliti simvolizə edən 11 rəqəmini və "Həvva içəri, Lilit çölə!" yazılaraq, Senoy, Sensenoy və Semangelof mələklərinin simvollarını hazırlayırlar. [27, s.38]

4.1.Tanaxda Lilit

Tanaxda buyrulur: “Orada vəhşi heyvanlar və kaftarlar görüşəcək, keçilər bir-birinə fəryad edəcəklər. Lilitdən “Lilit orada məskunlaşacaq və rahatlıq tapacaq” ifadələri ilə xatırlanır. [Yeşaya 34/14]

Hər nə qədər Tanaxda tək bir yerdə adı keçsə də Lilit, antik dövrdə yaxşı bilinən xüsusiyyətlərinə görə müqəddəs mətndə və buna əsaslanan əlyazmalarda müxtəlif şəxslərin, simvolların, arxetiplərin və ilahəyə əsaslanan bütün sitayişlərin gizli subyekti qəbul edilmişdir.

Lilitlə bağlı onun ilan şəklinə girərək ilk günahı etməkdə fəal rol oynadığı da düşünülür. Məlum olduğu kimi, Tanaxdakı ikinci yaradılış rəvayətindən sonra üçüncü fəsildə ilan hiyləsi ilə yeməyi qadağan olunmuş ağacdan yeyən Həvva və Adəmin cəzalandırılmasından bəhs edilir.

Lilit Müqəddəs Kitabda, Yeşaya 34-cü fəsildə və Əyyub 18-ci fəsillərdə şər əlamətidir. Onun köməkçiləri ilan və bayquşdur. [17, s.45]

Yəhudi mətnlərinə və inanclarına görə, yaradılmış ilk qadın olan Lilit ana torpaqla əlaqələndirilir. Torpaq məlum və yayılmış cəhəti ilə bərəkət və doğurqanlığı təmsil etsə də, necə ki. göyün cənnəti, paklığı, ilahiliyi və Tanrıya yaxınlığı ifadə etdiyi kimi, torpaq da ölüm, lənət, əzab, cəhənnəm kimi mənfi cəhətləri ifadə edir. Yəhudi inancına və yazılı

mətnlərinə görə xarakterində əzab, üsyan və şər hakim olan Lilit, xüsusilə kişilərə hakim olmağa çalışan və mahiyyətcə Adəmə olan qəzəbindən üsyan edən bir şəxsiyyətdir. [1, s.94]

4.2.Talmudda Lilit

Lilit Talmudda bir neçə dəfə xatırlanır. Bunlardan birində Lilit insan üzü və qanadları olan qadın gecə iblisi kimi təsvir edilir. [Niddah 54b]

Başqa bir Talmud mətnində Lilitin uzun saçlarından bəhs edilir və o, bədnam qadın və gecə iblisi kimi təsvir edilir. [Eruvin 100b]

Lilith haqqında başqa bir istinad onun fiziki olaraq uzun saçlı və qanadlı bir varlıq olmasıdır. [15, s.272] Kabbala mətnlərində Lilit şeytani cinsəlliyə malik varlıq kimi təsvir edilir.

4.3.Şumer ədəbiyyatında Lilit

Bəzi "yaradılış" rəvayətlərində və miflərdə Lilit adlı qadının Həvvadan əvvəl yaradıldığı qeyd edilir. İlk dəfə göründüyü eramızdan əvvəl 2000-ci ilə aid Şumer yaradılış hekayəsində patriarxal Şumer dünyasından qovulan matriarxal dövrün ilahəsi Lilit sonradan Kabbala təliminin mətnlərində xaric edilmiş bir obraza çevrildi.

Lilit obrazının kişiləri şirnikləndirən, onları özünə aşiq edən, sonra isə onları öldürmək üçün pəncərələrindən seyr edən Babil məhəbbət və müharibə ilahəsi İştarla ortaq keyfiyyətlərə sahibdir. [4, s.307-308] Bu baxımdan Liliti İştarın mənfi tərəfi də hesab etmək olar.

Cazibədar, cilovsuz, Şumer mətnindəki “əhilləşdirilməyən ilan”la eyni olan, bərabərlik və müstəqillikdə israr edən Lilit xarakteri ilə Adəmə, yəni kişiyə səssizcə tabe olan Həvva xarakteri ilə üz-üzə qoyulması faktı, qadını mövcud dünyəvi qanunlardakı ikisindən birinə uyğun bir mövqe seçməyə məcbur edir.

İbrahimi dinlərindən əvvəl Mesopotamiya inancında Ana İlahələr və ruhani varlıqlarla əlaqəli olan Lilit, ilahə kultu geridə qaldıqdan sonra qaranlıq bir fiqur olaraq görülməyə başladı. Lilit Şumer, Akkad, Babil və İbrani inanclarında bir çox qadın ilahələrlə əlaqələndirilir. [3, s.79-81]

Lilitin sirli xarakteri onun bir çox əfsanələrə mövzu olmasını səbəb olmuşdur. Yazılı bir mətn olaraq Lilith ilə ilk dəfə Gilqameş Dastanında yeraltı və qaranlığı idarə edən bir qadın olaraq qarşılaşırıq, eşq ilahəsi İnannanın müqəddəs ağacını təqib edən dişi cin olaraq təsvir edilmişdir. [26, s.119-122]

5.İlk günah və Lilit

Bu ilk günah yəhudi ənənəsində qadınların cəzbedici, bəd varlıq kimi görünməsinə və qadına qarşı mənfi bir təsəvvürün formalaşmasına səbəb olmuşdur. Bəzilərinin fikrincə, Adəmlə Həvvanı aldadan İblis ilan şəklində gələn Lilitdir. Lilit özü Adəmin yanına qayıtmaq istəməsə də, onun yerinə keçən Həvvanı qısqanır, onları yoldan çıxarmaq istəyirdi. Ənənəyə görə bunun adi bir ilan olmasını qeyri-mümkün hesab edilmiş və onu dişi şeytan Lilitlə eyniləşdirilmişdir. Bu fikir bir çox bədii əsərlərdə öz əksini tapmışdır. Məsələn, Michelangelonun Vatikan Sistine kapellasının tavanına çəkdiyi “İlk günah” əsərində Lilit Adəmlə Həvvanı aldatmağa çalışan yarı qadın, yarı ilan kimi təsvir edilmişdir. Parisdəki Notr-Dam Katedralindəki Adəm və Həvva heykəlində onların arasında yarı ilan, yarı qadın Lilit var.

6.Xristianlıqda Lilit obrazı

Dini mövzuları obrazlı şəkildə çatdıran xristian inancında ilan bədənli qadın kimi təsvir edilən Lilith, Həvva və Adəmi “xeyri və şəri bilmək” meyvəsini yeməyə təşviq edən ilanla simvollaşdırılır. Adəm və Həvvaya qadağan olunmuş meyvəni verən ilan və ya şeytan Xristianlıqda dişi məxluqdur.

Lilit qadınların səmavi dinlərdən əvvəl matriarxal vəziyyətini, Həvva isə səmavi dinlərdən sonra qadınların güc və azadlıqlarını itirdiyi patriarxal dövrü simvollaşdırır. Lilit şeytandır, Həvva isə iblis tərəfindən aldadılan qadındır, xristian inancına görə Lilit qadağan olunmuş meyvəni verən qadın, Həvva qadağan olunmuş meyvəni yeyən qadın, Məryəm isə öz saflığı və təmizliyi ilə, qadağan olunmuş meyvə ilə insanları günahkar edən digər iki qadının kəffarəsini ödəyən qadındır. [2, s.140]

Qadınların kişilərə tabe olmasını istəyən və qadınların kişilər üçün yaradıldığını düşünən xristian din adamlarının şeytana aldanaraq Həvvanı ilk günahı yaşadan Lilitə və qadına şeytan xasiyyətini bağladıqları düşünülür. O qədər ki, İsa ilkin günahı qadın vasitəsilə paylaşan Adəmin və bəşəriyyətin günahını öz canını qurban verməklə ödəmişdir. [20, s.20]

7.İncəsənətdə Lilit obrazı



Parisdəki Notre Dame Kilsəsinin [10] yüksək relyefləri arasında görünən "ilk günah" təsvirində, realist görünüşləri ilə fiqurlar, sənət əsərinin mesajını ziyarətçilərə bilavasitə çatdırır. Uşaq saflığındakı Həvva və Adəm ağacın iki yanında durur, Həvva bir əli ilə meyvəni yeyərkən, digər əli ilə Adəmə meyvədən verir. Həvva yoldan çıxarılmış, Adəm isə qurbandır. Ağacla birləşmiş halda canlı və güclü görünüşü ilə "ilan-qadın" Lilit, şeytani təbəssüm edərək, gələcək fəlakəti məmnuniyyətlə gözləyir.

Göründüyü kimi, sənətdə qadın və şər arasındakı əlaqə, xüsusilə ilan və qadını birləşdirən fiqurlarla açıq şəkildə ifadə edilir. Canavar "ilan-qadın" simvolu pisliyin həm mənbəyini, həm də təbiətini qadınlara aid edir. [6; 7]

Babil gil lövhələrinə görə, Lilit gecələr yuxularında kişiləri təqib edirdi və onlarla birlikdə yüzlərlə uşaq dünyaya gətirir və Goethenin Faust əsərinin mövzusu olmuşdur. [8, s.197-198]

8.Müasir dünyada Lilit obrazı

Körpələri boğan, kişiləri təqib edən yəhudi ənənəsində şeytan və ilan kimi təsvir edilən Lilit müasir dövrdə şəxsiyyətini dəyişmişdir. Amerikada yəhudi feminizminin ortaya çıxması ilə Lilitin xarakteri yenidən qurulmuşdur.

Günümüzdə yəhudi-xristian ənənələrində qadınların mənfi cinsiyyətçi anlayışı nifrət yaratdığı üçün bütün antik ilahələr Lilitdə toplanmışdır. Digər tərəfdən, Lilith, Şəkina adı altında teist feminist hərəkat tərəfindən Tək İlahə olaraq yenidən gündəmə gətirilmişdir. Beləliklə, Yəhudi-Xristian qadın hərəkatları qadınlıq xüsusiyyətlərinə görə əsrlər boyu qadınları xor görən patriarxal sistemi məhv etməyə və analıq keyfiyyətləri ön planda olan bir tanrını mənimsəməyə başlamışdırlar. Lilit feminist ideologiyanın əksini təşkil edir. Ona görə də demək olar ki, Liliti anlamaq Feminizmi dərk etməyin əsasıdır. Əslində, bu kontekstdə yəhudi əsilli feminist ilahiyyatçı Judith Plaskow "Lilithin gəlişi" adlı bir midraş yazmışdı. Sözügedən midraşda ənənəvi yəhudilikdə Lilitə aid edilən mənfi xüsusiyyətlər çıxarılıb və yerinə cəsur və müdrik qadın portreti çəkilmişdir. Müzakirə olunan feminist midraşda Həvva ilə Lilit arasındakı rəqabət və düşmənçilik aradan qaldırılmış, əksinə, iki qadın arasında güclü bir bağ yaranmışdır. [19, s.74]

Midraşın əsas məqsədi iki qadın arasında qurulan bacılıq bağı vasitəsilə qadınların təcrübələrini mənimsəmək və onların mənlik şüurunu reallaşdırmaqdır. Lilith vasitəsilə

başlayan feminist etiraz yəhudi qadınlar arasında nüfuzunu artırdı və bu mövzuda maarifləndirici seminarlar verilməyə başlandı. [24, s.121]

Lilit obrazı qadınların azadlığını simvolizə etmək üçün şüurlu şəkildə seçilmiş və qəhrəman elan edilmişdir. [18, s.30-31]

9.Nəticə

Yaradılışla bağlı müxtəlif rəvayətlər nəticəsində ortaya çıxan Lilit, Adəmə qarşı bərabər hüquq və azadlıq tələb edərək yer üzündə ilk üsyan hərəkatını başlatmışdır. Əslində, tarix boyu bir çox mif mövzusuna çevrilmiş və öz bəd əməlləri ilə bəşəriyyətə dərin təsir bağışlamış Lilit, yazılı mətnlərə görə, mahiyyətcə qadınların matriarxal quruluşunun ilk təmsilidir. Dini baxımdan səma patriarxal quruluşun, yer isə matriarxal quruluşun simvoludur.

Tövratda yaradılışla bağlı iki fərqli rəvayət var. Bunlardan birincisində Tanrının insanı öz surətində qadın və kişi olaraq yaradıldığı bildirilir. İkinci rəvayətdə əvvəlcə kişinin torpaqdan, sonra qadının qabırğasından yaradıldığı bildirilir. İkinci yaradılış hekayəsindən sonra gələn qadağan olunmuş ağacdan yemək və cənnətdən qovulma hekayəsi Həvva və Adəmin böyük günahı kimi qəbul edilmişdir. Tövratın bu ilk günahın səbəbkarı kimi ilk növbədə Həvvanı göstərməsi qadınlara mənfi münasibətin əsas səbəbi olmuşdur.

Başlanğıcda azadlıq, ədalət və bərabərlik tərəfdarı olan və ilahələrə bərabər sayılan Lilit dini mətnlərdə inanclar yer aldığı üçün iblis, ifrit obrazı ilə tanınmışdır. Lilit qədim Şumer və Babil inanclarında və yazılı mətnlərdə, əsasən yeni ana olan qadınların, uşaqların, kişilərin düşməni, ilahələr və iblislərlə əlaqələndirilir. Matriarxal nizamın süqutundan və patriarxal cəmiyyətlərin və inancların ortaya çıxmasından sonra Lilit bir növ iblis və ya şeytan kimi təsvir edilir.

Lilit, qadının, ilahənin nümayəndəsi kimi qəbul edildiyi və təqdir edildiyi qədim dövrlərdə Səma Kraliçası kimi tanınan İnannanın şeytan tərəfidir. Qaranlıq xüsusiyyətlərinə görə havadan və gecədən yaranan qaranlıq qadın ruhudur.

XVIII-XIX əsrlərdə Amerikada çiçəklənən feminist hərəkat həmin coğrafiyada yaşayan yəhudi qadınlarına da təsir etmişdi. Yəhudi qadınlar feminist hərəkat içərisində həm qadın, həm də yəhudi kimliklərini yenidən formalaşdırmağa çalışmışlar. Araşdırmalar zamanı Lilit fiquru feminist yəhudilər tərəfindən qəhrəman seçilmiş və feminist hərəkatın simvoluna çevrilmişdi.

Lilit obrazı, qədim inanclardan müasir dövrə qədər fərqli formalarda təqdim edilmişdir. Onun patriarxal sistemə qarşı çıxışı və bərabərlik iddiası qadının tarix boyu keçirdiyi mübarizələri əks etdirir. Müasir feminist hərəkatlar bu obrazı bir azadlıq simvolu olaraq qəbul etmiş və Lilitə yeni məna yükləmişdir. Bununla belə, Lilit yalnız bir üsyan obrazı deyil, həm də qadın kimliyinin mürəkkəbliyini, cəmiyyətlərin qadına olan münasibətini və gender məsələlərinin tarixi köklərini ortaya qoyur. Bu məqalə Lilit obrazının həm dini, həm də mədəni əhəmiyyətini anlamağa töhfə vermək məqsədi daşıyır. Beləliklə, qadın və kişi arasında balansın və qarşılıqlı hörmətin bərqərar olduğu bir cəmiyyət ideyasını irəli sürmək mümkündür.

Görünür ki, gərək günümüzdə, gərək də ondan əvvəlki dövrdə Lilitlə simvollaşdırılan azad, güclü subyekt olan qadın kimliyi, sosial həyatın davam etdiyi yer üzündən xaric edilmiş, Tanrı-dövlət-kişi birləşməsi bir kişiyə “tabe” olan bir “Həvva” simvolu məqbul hesab edilmişdir. Qadının qarşısında ya Lilit kimi kişiyə üsyan etmək, ya da Həvva kimi qabırğasından yaradılmış kişiyə boyun əymək seçimi qalır. Ancaq qadının bunlardan birini seçmək məcburiyyətində deyil. Kişi və qadın bir-birini tamamlayan bütövdür.

HISTORY OF SCIENCE
2024, vol 6, issue 1, serial 19, pp. 71-81

10.REFERENCES

1. Akyildiz E., C. (2013). Women Who Kill Children in Mythology: Lilith, Lamia, Medea. *Zeitschrift für die Welt der Türken*, *5*(1). (In Turkish)
2. Aydoghan, S. (2017). The Four Elements in Painting: Water, Air, Fire, and Earth. (Master's thesis). Atatürk University, Institute of Social Sciences. (In Turkish)
3. Basheren, B., & Cicek, A. (2018). Goddesses, Witches, and Rebellious Women. Totem Publications. (In Turkish)
4. Bottero, J., & Kramer, S. N. (2017). *Mesopotamian Mythology* (Trans.: A. Tumertekin). Istanbul: TIB Cultural Publications. (In Turkish)
5. Cigh, M. I. (2006). *The Cult of Fertility and Temple Prostitution*. Istanbul: Kaynak Publications. (In Turkish)
6. Cinar, A. (2018). Lilith: The Fall and Transformation into a Demon of the Great Goddess in Jewish Mythology. *Bilimname*, 35, 361–393. (In Turkish)
7. Traditional Shahmaran Symbol. [Online resource]. Retrieved from https://tr.wikipedia.org/wiki/Şahmeran (In Turkish)
8. Goethe, J. W. (2003). *Faust, Parts I & II*. [Electronic version]. Retrieved from https://antilogicalism.com/wpcontent/uploads/2017/07/faust.pdf (In German)
9. Hoffeld, J. M. (1968). Adam's Two Wives. *The Metropolitan Museum of Art Bulletin*, 26(10), 430–440. (In English)
10. Louvre Bible. [Online resource]. Retrieved from https://louvrebible.org/oeuvre/169/visitethematique (In English)
11. Jewish Women's Archive. (2024). Alphabet of Ben Sira 78: Lilith. Retrieved from https://jwa.org/media/alphabet-of-ben-sira-78-lilith (In English)
12. Lesses, R. M. (2005). Lilith. In *Encyclopedia of Religion*. London: Thomson & Gale. (In English)
13. Lilith in the Zohar. [Online resource]. Retrieved from http://www.bitterwaters.com/Lilith_origins_zohar.html (In English)
14. McDonald, B. E. (2009). In Possession of the Night: Lilith as Goddess, Demon, Vampire. In *Sacred Tropes: Tanakh, New Testament, and Qur'an as Literature and Culture* (pp. 173–183). Boston: Brill. (In English)
15. Meral, Y. (2021). *Judaism in the Light of Jewish Sources*. Istanbul: Milel Nihal Publications. (In Turkish)
16. Morgan, S. (2013). Feminist Approaches. In *Contemporary Approaches in the Study of Religions: From 1945 to Present*. Ankara: Eski Yeni Publications. (In Turkish)
17. Ozbay, E. (2013). A Myth of Impossibility Through Adam–Eve–Lilith Figures: Love. *Idil Journal*, 6(30), 40–58. https://doi.org/10.7816/idil-06-30-08 (In Turkish)
18. Plaskow, J. (2005). *The Coming of Lilith: Essays on Feminism, Judaism, and Sexual Ethics*. Boston: Beacon Press. (In English)
19. Plaskow, J. (2005). *The Coming of Lilith: Essays on Feminism, Judaism, and Sexual Ethics, 1972–2003*. Boston: Beacon Press. (In English)
20. Taslaman, C., & Taslaman, F. (2021). *Islam and Women*. Istanbul: Istanbul Publishing House. (In Turkish)
21. Timucin, A. (2005). *The Dialectic of Love*. Istanbul: Bulut Publications. (In Turkish)
22. Torah. (1968). (Trans.: E. Bashkecid). Baku: Mutercim. (In Azerbaijani)
23. Unal, A. (2017). The Creation of Woman in Jewish Tradition and the Legend of Lilith. *Cukurova University Faculty of Theology Journal*, 17(2), 103–115. (In Turkish)
24. Walton, R. M. (2011). Lilith's Daughters, Miriam's Chorus: Two Decades of Feminist Midrash. *Religion & Literature*, 43(2). (In English)
25. Yonar, G. (2020). *Creation Mythologies*. Otuken Publications. (In Turkish)

26. Yucel, H. A. (2017). *Epic of Gilgamesh* (Trans.: S. Maden). Turkiye Ish Bankasi Cultural Publications. (In Turkish)
27. Zingsem, V. (2006). *Lilith, Adam's First Wife* (Trans.: D. D. Yuzer). Ilya Izmir Publications. (In Turkish)

ƏDƏBİYYAT

1. Akyıldız Ercan, C. (2013). Mitolojide Çocuk Katili Kadınlar: Lilith, Lamia, Medea. *Zeitschrift für die Welt der Türken*, 5(1).
2. Aydoğan, Ş. (2017). Resim Sanatında Dört Element: Su, Hava, Ateş ve Toprak. (Master's thesis). Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü.
3. Başeren, B., & Çiçek, A. (2018). *Tanrıçalar, Cadılar ve Aykırı Kadınlar*. Totem Yayınları.
4. Bottero, J., & Kramer, S. N. (2017). *Mezopotamya Mitolojisi* (Tərcümə: Alp Tümertekin). İstanbul: TİB Kültür Yayınları.
5. Çığ, M. İ. (2006). *Bereket Kültü ve Mabet Fahişeliği*. İstanbul: Kaynak Yayınları.
6. Çınar, A. (2018). Lilith: Yahudi mitolojisinde ana tanrıçanın düşüş ve şeytana dönüşüm serüveni. *Bilimname*, 35, 361–393.
7. Ənənəvi Şahmeran simvolu. [Online resource]. Retrieved from https://tr.wikipedia.org/wiki/Şahmeran
8. Goethe, J. W. (2003). *Faust, Parts I & II*. [Electronic version]. Retrieved from https://antilogicalism.com/wpcontent/uploads/2017/07/faust.pdf
9. Hoffeld, J. M. (1968). Adam's Two Wives. *The Metropolitan Museum of Art Bulletin*, 26(10), 430–440.
10. Louvre Bible. [Online resource]. Retrieved from https://louvrebible.org/oeuvre/169/visitethematique
11. Jewish Women's Archive. (2024). Alphabet of Ben Sira 78: Lilith. Retrieved from https://jwa.org/media/alphabet-of-ben-sira-78-lilith
12. Lesses, R. M. (2005). Lilith. In *Encyclopedia of Religion*. London: Thomson & Gale.
13. Lilith in the Zohar. [Online resource]. Retrieved from http://www.bitterwaters.com/Lilith_origins_zohar.html
14. McDonald, B. E. (2009). In Possession of the Night: Lilith as Goddess, Demon, Vampire. In *Sacred Tropes: Tanakh, New Testament and Qur'an as Literature and Culture*. Boston: Brill, 173–183.
15. Meral, Y. (2021). *Yahudi Kaynakları Işığında Yahudilik*. İstanbul: Milel Nihal Yayınları.
16. Morgan, S. (2013). Feminist Yaklaşımlar. In *Dinler Tarihi İncelemelerinde Çağdaş Yaklaşımlar-1945'ten Günümüze*. Ankara: Eski Yeni Yayınları.
17. Özbay, E. (2013). Adem – Havva – Lilith Figürleri İzleğinde Bir Olanaksızlık Miti: Aşk. *İdil Dergisi*, 6(30), 40–58. https://doi.org/10.7816/idil-06-30-08
18. Plaskow, J. (2005). *The Coming of Lilith: Essays On Feminism, Judaism, and Sexual Ethics*. Boston: Beacon Press.
19. Plaskow, J. (2005). *The Coming of Lilith: Essays On Feminism, Judaism, and Sexual Ethics, 1972–2003*. Boston: Beacon Press.
20. Taslaman, C., & Taslaman, F. (2021). *İslam ve Kadın*. İstanbul: İstanbul Yayınevi.
21. Timuçin, A. (2005). *Aşkın Diyalektiği*. İstanbul: Bulut Yayınları.
22. Tövrat. (1968). (Tərcümə: Etimad Başkeçid). Bakı: Mütərcim.
23. Ünal, A. (2017). Yahudi Geleneğinde Kadının Yaratılışı ve Lilit Efsanesi. *Çukurova Üniversitesi İlahiyat Fakültesi Dergisi*, 17(2), 103–115.
24. Walton, R. M. (2011). Lilith's Daughters, Miriam's Chorus: Two Decades of Feminist Midrash. *Religion & Literature*, 43(2).
25. Yonar, G. (2020). *Yaratılış Mitolojileri*. Ötüken Neşriyat.
26. Yücel, H. A. (2017). *Gılgamış Destanı* (Tərcümə: Sait Maden). Türkiye İş Bankası Kültür Yayınları.
27. Zingsem, V. (2006). *Lilith, Adem'in İlk Karısı* (Tərcümə: Devrim Doğan Yüzer). İlya İzmir Yayınevi.